**“Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin kollegiyasının tərkibi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 19 may tarixli 81 nömrəli qərarında dəyişikliklər edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 9 noyabr tarixli 647 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi haqqında Əsasnamə”nin 16-cı hissəsinə əsasən, Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin kollegiyasının tərkibi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 19 may tarixli 81 nömrəli qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, №5, maddə 389; 2010, №7, maddə 699) “Kollegiyanın üzvləri” hissəsində “Həsənov Nadir Fərman oğlu” sözləri “Muxtarov Cəfər Məhərrəm oğlu” sözləri ilə, “Məmmədov Zülfüqar Əlif oğlu - Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Layihələrin memarlıq-planlaşdırma həllərinin razılaşdırılması şöbəsinin müdiri” sözləri “Bayramov Anar Fərhad oğlu - Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Şəhərsalma şöbəsinin müdiri” sözləri ilə və “Əhmədov Bəkir Məmmədəli oğlu - Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin “Azərmemarlayihə” Dövlət Baş Layihə İnstitutunun direktoru” sözləri “Canmirzəyev Ağamirzə Ağababa oğlu - Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Texniki normalar və lisenziya şöbəsinin müdiri” sözləri ilə əvəz edilsin.

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə**

Bakı şəhəri, 24 dekabr 2015-ci il
№ 400